UOT 37.0

**Günay İlham qızı Poladova**
*Qarabağ Universitetinin Beynəlxalq Dil Mərkəzinin ingilis dili müəllimi*
*https://orcid.org/0009-0004-4521-1706*
*E-mail: gunay.poladova@karabakh.edu.az*
https://doi.org/10.69682/arti.2025.92(1).22-26

# MƏKTƏB MÜHİTİNDƏ KONFLİKTOLOJİ MƏDƏNİYYƏTİN ƏHƏMİYYƏTİ

**Гюнай Ильхам гызы Поладова**
*преподаватель английского языка Международного Языкового Центра Карабахского Университета*

# ЗНАЧЕНИЕ КОНФЛИКТОЛОГИЧЕСКОЙ КУЛЬТУРЫ В ШКОЛЬНОЙ СРЕДЕ

**Gunay Ilham Poladova**
*English language teacher at the International Language Center of Karabakh University*

# THE IMPORTANCE OF CONFLICTOLOGY CULTURE IN THE SCHOOL ENVIRONMENT

**Xülasə.** Bu məqalədə təhsil mühitində yaranan konfliktlərin səbəbləri, növləri və onların psixoloji aspektləri araşdırılmışdır. Məqsəd konfliktlərin mənfi təsirlərini minimuma endirmək üçün onların vaxtında aşkarlanması və səmərəli idarəetmə üsullarını müəyyənləşdirməkdir. Araşdırma nəticəsində müəyyən olunmuşdur ki, konfliktlərin düzgün idarə olunması tədris prosesinin keyfiyyətini artırır və məktəb mühitində psixoloji rifahın yüksəlməsinə kömək edir. Məqalədə konfliktlərin konstruktiv həlli üçün psixoloji yanaşmalar və praktik tövsiyələr təklif olunmuşdur. Bu tövsiyələr məktəb psixoloqları, pedaqoqlar və müəllimlər üçün faydalı ola bilər.

***Açar sözlər:*** *konflikt, psixoloji aspektlər, təhsil prosesi, konfliktin idarə olunması, məktəb psixologiyası, konstruktiv həll, emosional rifah, interpersonal münasibətlər*

**Аннотация.** В данной статье исследованы причины, виды и психологические аспекты конфликтов, возникающих в образовательной среде. Целью является своевременное выявление и определение эффективных методов управления конфликтами для минимизации их негативных последствий. В результате исследования установлено, что правильное управление конфликтами повышает качество учебного процесса и способствует улучшению психологического благополучия в школьной среде. В статье предлагаются психологические подходы и практические рекомендации для конструктивного разрешения конфликтов. Эти рекомендации могут быть полезны школьным психологам, педагогам и учителям.

***Ключевые слова:*** *конфликт, психологические аспекты, образовательный процесс, управление конфликтами, школьная психология, конструктивное разрешение, эмоциональное благополучие, межличностные отношения.*

**Abstract.** This article examines the causes, types, and psychological aspects of conflicts arising in the educational environment. The aim is to identify early detection and effective management methods to minimize the negative effects of conflicts. The research findings indicate that proper conflict management improves the quality of the educational process and promotes psychological well-being in the school environment. The article proposes psychological approaches and practical recommendations for the constructive resolution of conflicts, which can be useful for school psychologists, educators, and teachers.

***Keywords:*** *conflict, psychological aspects, educational process, conflict management, school psychology, constructive resolution, emotional well-being, interpersonal relationships.*

Çox zaman münaqişələr müxtəlif təşkilatların fəaliyyətində həlledici rola malik olur. Məktəbdə müəllim-şagird-valideyn münasibətlərində yaranmış münaqişələrin həlli yollarının

tapılması şagirdlərin təlim-tərbiyəsində müsbət nəticələr əldə olunmasına gətirib çıxarır. Bu elm sahəsi yeni yaranmağa başlamışdır. Bu sahədə mütəxəssislər, demək olar ki, yox səviyyəsindədir. Əldə olan əsərlərin təhlili göstərir ki, münaqişələri, təxminən ondan artıq elm sahəsi öyrənir. Münaqişələr – politologiya, psixologiya, pedaqogika, sosiologiya, fəlsəfə hüquqşünaslıq və konfliktologiya elmlərinin obyektidir.

Konfliktologiya sözü Latın dilindəki "conflictus" (qarşıdurma, münaqişə) və Yunan dilindəki "-logia" (elm, bilik) sözlərindən yaranıb. "Konflikt" sözü qarşıdurma və ya ziddiyyətli maraqların olduğunu bildirir, "-logiya" isə bir sahədəki sistemli bilik və araşdırmanı ifadə edir. Beləliklə, "konfliktologiya" münaqişələrin və qarşıdurmaların yaranma səbəblərini, inkişafını və həlli yollarını öyrənən elmi sahə kimi təyin oluna bilər. Bu sahə, sosial, psixoloji və mədəni aspektləri nəzərə alaraq, münaqişələrin idarə edilməsi və həlli ilə bağlı nəzəri və praktik yanaşmaları inkişaf etdirir.

Konfliktlər həyatın hər sahəsində baş verən təbii hadisələrdir. Xüsusilə məktəb mühiti, sosiallaşmanın və şəxsi inkişafın əsas mərhələlərindən biri olduğu üçün münaqişələrin baş verməsi qaçılmazdır. Məktəblərdə şagirdlər sosial münasibətlər, psixoloji qarşıdurmalar və fərqli düşüncə tərzləri ilə qarşılaşırlar ki, bu da bir sıra münaqişələrin yaranmasına səbəb olur. Konfliktoloji mədəniyyət, məktəblərdəki münaqişələri konstruktiv şəkildə idarə etmək və onların qarşısını almaq üçün çox vacib bir anlayışdır.

Konfliktologiyada münaqişələrin bütün növləri eyni səviyyədə öyrənilməyib, məsələn, şəxsiyyətlərarası münaqişələrin öyrənilməsinə əsərlərin 83%-i həsr edilmişdir, lakin şəxsiyyətdaxili münaqişələrin öyrənilməsinə cəmi 8%-i həsr edilmişdir. Beynəlxalq əlaqələr sahəsində münaqişələrə həsr edilmiş tədqiqatların təxminən 5%-i metodoloji, ümumnəzəri xarakter daşıyır. Bundan əlavə, psixoloqlar insan fəaliyyətinin müxtəlif sahələrində – əmək kollektivlərində, hərbçilər, idmançılar, məhbuslar arasında, pedaqoji fəaliyyətdə, ailələrdə, insanın sosiallaşması prosesində, məktəbəqədər yaş dövründə, yeniyetməlik dövründə və s. Münaqişələri öyrənirlər.

Müəllimlərin əksəriyyətinin fikrinə görə, təhsil sahəsində ortaya çıxan bütün münaqişələr arasında ən geniş yayılanı şəxsiyyətlərarası ziddiyyətlərdir. Nəticə etibarı ilə, pedaqoji fəaliyyətin bu subyektiv tərəfinin konkretləşdirilməsi, təhsil müəssisələrində münaqişəli münasibətləri formalaşdıran amillərin təhlili üçün əsas verir. Pedaqoji münaqişələr, ilk növbədə, "fikir maneə"ləri, müəllimlər və şagirdlər arasındakı yanlış və ziddiyyətli münasibətlər əsasında formalaşdığından müəllimin təlim-tərbiyə fəaliyyətinə, eləcə də şagirdin təhsilinə verilən obyektiv qiymət onların qarşılıqlı münasibətlərinin öyrənilməsinə əsaslanmalıdır. Bundan əlavə, ailə – məktəb sistemində münaqişəli münasibətlərin formalaşmasına xüsusi diqqət yetirilməlidir ki, bu da müəyyən dərəcədə problemli şagirdlərlə deyil, həm də müəllim və valideynlərlə psixoloji, pedaqoji iş metodlarının optimallaşdırıl23nikas imkan verəcəkdir.

Münaqişələrə səbəb olan obyektiv amillər hər zaman olub, var və olacaqdır. Şübhəsiz ki, onlar nəzərə alınmalıdır, lakin buna baxmayaraq, məktəb münaqişələrinin meydana gəlməsi və həlli məsələlərində əsas rol subyektiv amillərə, hər şeydən əvvəl, müəllim, şagird, valideynlər və məktəb rəhbərliyi arasında düzgün qurulmayan münasibətlərə verilir.

Tədris mühitindəki münaqişələr daha çox tədris yükü problemindən qaynaqlanır. Q.İ.Kozırev müəllimlərin təqribən 87%-nin bunu məktəbdaxili qarşıdurmaların əsas səbəbi hesab etdiyini, eyni zamanda həm tədris yükünün çoxluğu, həm də çatışmazlığı ilə razı olmadıqlarını müəyyən edib. Müəllim kollektivində gərginlik və münaqişələrin artmasının səbəblərindən biri də müəllimin öz iş fəaliyyətindən məmnunluğu, şagirdlər, valideynlər, həmkarlar və məktəb rəhbərliyinin haqsız ittihamları ola bilər. Məktəblilər qeyd edirlər ki, bəzi müəllimlər səhv davranır, materialı aydın izah etmir, qeyri-adekvat qiymətləndirir, şagirdə subyektiv baxışlarını göstərməyə, fikirlərini söyləməyə imkan vermir, uğursuz və itaətsiz olan şagirdlərə mənfi münasibət bəsləyir, onları sinif yoldaşlarının qarşısında alçaldır və ya sinifdən kənarlaşdırırlar. Sinifdə nizam-intizam qaydalarının pozulması hallarında müxtəlif «pedaqoji» fəndlərə əl atırlar: qaydanı pozan şagirdi sinifdən kənarlaşdırır, gündəliyə iradlarını yazır, direktor və ya təlim-tərbiyə işləri üzrə direktor müavini ilə «qorxudur», qışqırır, valideynləri məktəbə çağırır, ev tapşırıqlarına qərəzli nəzarət edirlər.

Məktəbdə münaqişələr tez-tez baş verir. Üstəlik müəyyən hallarda münaqişə müəllimlər və şagirdlər arasında münasibətlərin normal inkişafına mane olan problemlərin həllində zəruri şərtə çevrilir. Təəssüf ki, hər məktəbin müəllim heyətində münaqişəli vəziyyətlərlə, həll olunmamış problemlərlə (yarımçıq gestalt) səriştəli şəkildə işləyə bilən mütəxəssislər olmadığı üçün münaqişələr ciddi şəkildə böyüyür. Bu problemlərin həlli yalnız digər təşkilatların – yetkinlik yaşına çatmayanlarla iş üzrə 24nikasyanın və ya polisin müdaxiləsi sayəsində mümkün olur.

Münaqişələrə səbəb olan sosial və fərdi amillər çoxdur. Onlar müxtəlif təzahür səviyyələrinə malikdir və hər konkret vəziyyət xüsusi olaraq təsnif edilir. Psixoloji və pedaqoji tədqiqatlar göstərir ki, məktəbdə münaqişəli davranışın yaranması üçün əlverişli şərtlər çoxşaxəli ola bilər və ən çox ailə, cəmiyyət, referent qrup və sosiumda formalaşır. Daha az valideyn sevgisi və qayğısı görən uşaqlar, bir qayda olaraq, digər uşaqlara və böyüklərə aqressiv münasibət göstərirlər. Böyüklər tərəfindən "sevilməyən" uşaqlar yaşıdlarına nisbətən daha destruktiv davranırlar. Onlar başqa uşaqlarla münaqişəyə girərkən bir tərəfdən başqalarına qarşı münasibətdə aqressiv olmağın qəbuledilməz olduğunu və buna görə cəzalandırıla biləcəklərini anlamağa başlayır, digər tərəfdən isə böyüklərin özlərinin də bu hərəkətlərə yol verdiyini görürlər.

Məktəblilərin münaqişəli davranışlarının səbəblərini öyrənərkən subyektiv və mədəni amilləri nəzərə almaq lazımdır. Qrupda mənfi davranışın formalaşması yeniyetmələrə xas olan "mövqeyi" və hamı kimi olmaq istəyi ilə izah olunur. Bəzi tədqiqatçılar aqressiv və münaqişəli uşaqların müxtəlif neqativ davranışlara (spirtli içkilərə meyllilik, mübahisələr və münaqişələr, ətrafdakılara hücumlar və s.) meylli olduqlarını iddia edirlər. Məktəbdə gizlin şəkildə pivə içmək, siqaret çəkmək özünü nüfuzlu və daha böyük göstərmək arzusundan irəli gəlir. Yeniyetmə gündəlik həyatda yaşadığı sıxıntıları, hüquqlarının pozulmasını isə fərdi və kütləvi münaqişələrdə iştirak etməsi ilə kompensasiya edir. Müəllimlər və həmyaşıdlarının münaqişəli uşaqlara mənfi münasibəti münaqişənin təzahürü üçün əlavə psixoloji təsirdir. Belə ki, uşaq «pis» və ya «sinfin təlxəyi» rolunu oynamağa məcbur olduğunu hiss edir və özünü daim bu rola uyğun aparmalı olur. Müəllimlərin belə şagirdlərə qarşı yanlış mövqe tutmaqla onları lazımsız münaqişələrə təhrik etmələrinə də tez-tez rast gəlinir. Belə şagirdlər zəif, yığma siniflərə keçirilir və ya fərdi təhsilə cəlb olunurlar. İlk baxışdan pedaqoji cəhətdən nəcib görünən bu addım sonradan mənfi nəticəyə gətirib çıxarır. Problemli şagirdin zəif sinfə keçirilməsi onu tərbiyələndirmir, əksinə, onun cəmiyyətdə qarşılıqlı fəaliyyət çevrəsini xeyli daraldır. Deməli, bu, qəzəb və intiqamı əvvəlcədən təyin edən, pedaqoji cəhətdən yaradılan süni vəziyyətdir

Konfliktoloji mədəniyyət, qarşıdurmaların səbəblərini anlamaq və onların müsbət yöndə həllinə yönəlmiş düşüncə və davranış tərzidir. Məktəb mühitində bu mədəniyyətin inkişafı yalnız münaqişə həllinə deyil, həm də şagirdlərin sosial və emosional bacarıqlarının inkişafına kömək edir. Məktəb mühiti, tərbiyəvi bir mühit olaraq, şagirdlərə münaqişə ilə mübarizə aparmaq və onları sülh yolu ilə həll etmək bacarığını öyrətməlidir.

Konfliktoloji mədəniyyət, münaqişə vəziyyətlərinə yanaşma tərzini və münaqişə tərəfləri arasında anlaşmanı, hörməti və əlaqəni möhkəmləndirməyə yönəlmiş bir mədəniyyət olaraq tərif edilə bilər. Konfliktoloji mədəniyyətin əsas prinsipləri, qarşıdurmaların mənfi təsirlərini azaltmağa, hər iki tərəfi qane edən həll yolları tapmağa və həm fiziki, həm də emosional zədələnmənin qarşısını almağa yönəlmişdir.

Məktəb mühiti cəmiyyətin kiçik bir nüsxəsidir. Şagirdlər burada sosial bacarıqlarını inkişaf etdirir, emosional təcrübələr qazanır və şəxsi əlaqələr qururlar. Müəllimlər, valideynlər və şagirdlər arasında yaranan münaqişələr, doğru şəkildə idarə edildikdə, şagirdlərin həyatlarında böyük bir inkişaf mərhələsi ola bilər. Konfliktoloji mədəniyyət, məktəb mühitində qarşıdurmaların sülh yolu ilə həllini təmin edərək, məktəb mühitinin ümumi atmosferini yaxşılaşdırmağa kömək edir.

Məktəblərdəki münaqişələr müxtəlif səbəblərlə meydana gələ bilər. Bu səbəblər həm daxili, həm də xarici faktorlardan irəli gəlir. Daxili səbəblərə şagirdlərin şəxsi xüsusiyyətləri, emosional vəziyyətləri və sosial bacarıqları daxildir. Xarici səbəblərə isə məktəbdəki idarəetmə tərzi, təhsil sisteminin strukturu və sosial mühit təsir edir.

*Şəxsi və Emosional Fərqliliklər.* Şagirdlərin fərqli xarakterləri, davranışları və emosional ehtiyacları münaqişələrə səbəb ola bilər. Bəzi şagirdlər, öz fikirlərini və hisslərini ifadə etməkdə çətinlik çəkə bilərlər, bu da qarşılıqlı anlaşılmazlıqlara gətirib çıxara bilər.

*Əlavə Təzyiq və Tələblər.* Məktəb mühitindəki təhsil tələbləri və sosial təzyiqlər, şagirdlər arasında gərginliyə və münaqişələrə səbəb ola bilər. Uğursuzluq qorxusu və özünü sübut etmə istəyi, şagirdləri bir-biri ilə münaqişəyə girə bilər.

*Ətraf Mühit və İdarəetmə Prosesləri.* Məktəbin idarəetmə tərzi, şagirdlər və müəllimlər arasında münasibətlərə təsir edir. Əgər məktəbdə autokratik və sərt idarəetmə mövcudsa, bu da münaqişələrin yaranmasına zəmin yaradır.

Konfliktoloji mədəniyyətin məktəb mühitində tətbiqi, yalnız münaqişələrin həllinə deyil, həm də şagirdlərin sosial və emosional inkişafına töhfə verir. Bu mədəniyyətin əhəmiyyəti bir neçə istiqamətdə özünü göstərir:

*Emosional və Sosial İnkişaf.* Konfliktoloji mədəniyyət, şagirdlərə qarşı tərəfin hisslərini və fikirlərini başa düşmə bacarığını inkişaf etdirir. Bu, onların empatiya qurma və başqalarının mövqeyini anlama bacarıqlarını artırır. Emosional intellektin inkişafı, şagirdlərə sosial münasibətlərdə daha müsbət yanaşmalar və davranışlar yaratmağa kömək edir.

*Münaqişə Həlli Bacarıqları.* Məktəbdə konfliktoloji mədəniyyətin öyrədilməsi, şagirdlərə münaqişələri effektiv şəkildə necə həll etməyi öyrədir. Bu bacarıqlar yalnız məktəb mühitində deyil, gələcəkdə şəxsi və peşə həyatlarında da faydalıdır.

*Təhsilin Keyfiyyətinin Artırılması.* Məktəbdə münaqişələr yaxşı idarə olunduqda, şagirdlər daha az stress altında olur və dərsə daha çox fokuslanırlar. Bu, təhsilin keyfiyyətini artırır və ümumi məktəb mühitinin yaxşılaşmasına səbəb olur.

*Məktəb Havasının Yaxşılaşması.* Münaqişələrin konstruktiv şəkildə həll olunması, məktəbdə ümumi atmosferin yaxşılaşmasına səbəb olur. Şagirdlər arasında daha sülhsevər və hörmətli münasibətlər qurulur. Müəllimlər də şagirdlərin inkişafını dəstəkləyərək, daha produktiv bir mühit yaradırlar.

Məktəb münaqişələrin həllində ən ciddi maneə müəllimlərin və valideynlərin əksəriyyəti tərəfindən seçilən qeyri-effektiv davranış strategiyası – qarşıdurma strategiyasıdır. Çox vaxt onlar öz mənafelərini müdafiə edərək münaqişənin yalnız bir həll yolunu göstərirlər ("uşağım günahsızdır", "şagirdin öz səhvidir, böyüklərin nöqteyi-nəzərini qəbul etməlidir" və s.). Bəzən hakim kimi çıxış edən müəllim vəziyyəti nəzarətdə saxladığına tamamilə əmin olur. Məktəbdə çalışdığı illər ərzində öyrətmək və hökmranlıq etmək vərdişi təcrübəli müəllimə yanılmazlıq və haqlılıq hissi verir. Əlverişli psixoloji iqlimin yaradılması müəllimləri yalnız professional pedaqoji fəaliyyətə deyil, eyni zamanda uyğun insani keyfiyyətlərin, iradi səylərin, əməkdaşlıq etmək və güzəştə getmək bacarıqlarının inkişaf etdirilməsinə də yönəldir.

Məktəblərdə konfliktoloji mədəniyyətin tətbiqi, müəyyən metod və yanaşmaların tətbiqi ilə həyata keçirilə bilər. Bu metodlar aşağıdakılardır:

*Təlim və Seminarlar.* Müəllimlər və şagirdlər üçün mütəmadi olaraq konfliktoloji təlimlər və seminarlar təşkil etmək, münaqişə həllinə dair bilikləri artırmağa kömək edir. Bu təlimlərdə, şagirdlərə qarşılıqlı hörmət, anlayış və kommunikasiya bacarıqları öyrədilməlidir.

*Vasitəçilik və Danışıqlar.* Məktəb mühitində konfliktoloji mədəniyyətin inkişafı üçün vasitəçilik yanaşması vacibdir. Məktəbin daxilində vasitəçilər təyin edilərək, münaqişələr tərəflər arasında şəffaf və konstruktiv şəkildə həll edilə bilər.

*Dostluq və Əməkdaşlıq Proqramları.* Şagirdlər arasında əməkdaşlıq və dostluq münasibətlərini gücləndirmək, münaqişələrin yaranma ehtimalını azaldır. Məktəblərdə bu məqsədlə müxtəlif proqramlar və tədbirlər keçirilə bilər.

*Dərs və Fəaliyyətlərdə Konflikt Həllinə Yönəlik Yanaşmalar.* Məktəb dərslərində və fəaliyyətlərində şagirdlərə münaqişə həlli bacarıqları öyrədilməlidir. Məsələn, müxtəlif oyunlar və qrup tapşırıqları vasitəsilə şagirdlər münaqişə ilə necə mübarizə aparacağını öyrənə bilərlər.

Məktəb mühitində konfliktoloji mədəniyyətin inkişafı, yalnız münaqişələrin həllinə deyil, həm də şagirdlərin sosial və emosional inkişafına böyük təsir göstərir. Münaqişələrin düzgün idarə edilməsi, məktəbin ümumi atmosferinin yaxşılaşmasına, şagirdlər arasında əməkdaşlığın artmasına və təhsil keyfiyyətinin yüksəlməsinə gətirib çıxarır. Bu mədəniyyətin tətbiqi, şagirdlərin gələcək həyatlarında daha sağlam və

müsbət münasibətlər qurma bacarıqlarını artırır. Beləliklə, məktəblərdə konfliktoloji mədəniyyətin təbliği və inkişafı, cəmiyyətin ümumi rifahına və sülhün qorunmasına mühüm töhfə verir.

**Problemin aktuallığı.** Tarixən məktəb münaqişələri həmişə mövcud olmuşdur, bu gün də bu problem aktualdır. Məqalədə bu problem ətraflı tədqiq olunur və onların həlli yolları göstərilir.

**Problemin elmi yeniliyi.** Məqalədə məktəbdə baş verən münaqişələr həm daxili (şəxsi və emosional fərqliliklər), həm də xarici (idarəetmə tərzi, sosial mühit) amillərə əsaslanaraq elmi şəkildə təsnif edil26nikas. Bu yanaşma münaqişələrin mahiyyətini daha dərin anlamağa və təsnifləşdirməyə imkan verir. Həmçinin, məqalə konfliktologiyanın məktəb mühitinə tətbiqini, onun sosial, emosional və pedaqoji təsirlərini sistemli şəkildə tədqiq edir. Məktəbdə konfliktoloji mədəniyyətin inkişafının şagirdlərin şəxsi və sosial bacarıqlarına müsbət təsiri, elmi baxımdan daha geniş işıqlandırılmışdır.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə təqdim olunan üsul və tövsiyələr məktəb rəhbərliyi, müəllimlər və psixoloqlar üçün praktiki təlimat rolunu oynayır. Bu metodların tətbiqi məktəbdə sağlam psixoloji mühitin formalaşmasına kömək edir. Konfliktoloji mədəniyyətin pedaqoji prosesə inteqrasiyası şagirdlərin sosial-emosional inkişafını dəstəkləyir. Bu yanaşma onların öz duyğularını idarə etmə, empatiya qurma və konfliktləri konstruktiv şəkildə həll etmə bacarıqlarını artırır. Təklif olunan konflikt idarəetmə metodları məktəbdə üçtərəfli (müəllim, valideyn, şagird) münasibətlərin gücləndirilməsinə xidmət edir. Bu, daha sağlam kommunikasiya mühitinin yaranmasına şərait yaradır. Məqalədəki tövsiyələr məktəblərdə psixoloji xidmətlərin gücləndirilməsi, psixoloqların münaqişələrin həllində aktiv 26nikrakı üçün əlavə resurs rolunu oynaya bilər.

## Ədəbiyyat:

1. Augsburger, D. (1992). Conflict mediation across cultures. Louisville, Kentucky: Westminster / John Knox Press.
2. Bannon, I. & Paul Collier (Eds.). (2003). Natural resources and violent conflict: Options and actions. Washington, D.C: The World Bank.
3. Çələbiyev N.Z. (2008). Təhsil sistemində psixoloji xidmət: nəzəriyyə və təcrübə. I hissə. Bakı, ADPU-nun nəşriyyatı.
4. Xəlilov H. (2012). Uşaq və yeniyetmələrin inkişafının sosial-psixoloji məsələləri. Bakı, Qafqaz Universitetinin nəşriyyatı.
5. Kozırev Q.İ. (2001). Vvedenie v konfliktoloqiyu: Uçeb. Posobie dlya stud. Vısş. Uçeb. Zavedeniy. – M.; Qumanit. İzd. Sentr VLADOS.
6. Məmmədzadə R.H. (2004). Konfliktlər, ailələr, məktəblilər. Bakı: Müəllim,
7. Дмитриев А.В. Социальный конфликт: общее и особенное. М.: Гардарики, 2002.
8. Конфликтология. Учебник. 2-е изд. / Под ред. А.С.Кармина. СПб.: Лань, 2000.
9. Светлов В. А. Аналитика конфликта. СПб., "Росток", 2001.
10. Семенов В.А. Феномен конфликта. СПб., 2005.
11. Семенов В.А. Феномен конфликта. СПб., 2005.
12. Семенов В.А. Феномен конфликта. СПб., 2005.
13. Семенов В.А. Феномен конфликта. СПб., 2005.

**Redaksiyaya daxil olub:** 31.01.2025